# Natiqlər məclisinin ustadı





Fevralın 14-ü AYB Lənkəran bölməsində XIX əsr Azərbaycan ədəbi-mədəni mühitinin görkəmli nümayəndələrindən biri, şair, pedaqoq, mütəfəkkir Axundzadə Mirzə İsmayıl Qasirin anadan olmasının 220 və vəfatının 125 illiyi münasibətilə "Natiqlər məclisinin ustadı" adlı tədbir keçirildi.

Tədbirdə Astara, Lerik, Masallı, Lənkəran yazarları, ziyalılar, Qasirin yaxın qohumları, Qasir irsinin tədqiqatçısı, nəvəsi mərhum Tufan Axundovun AMEA-da çalışdığı iş yoldaşları iştirak etdilər.

AYB Lənkəran Bölməsinin sədri, yazıçı, dramaturq Qafar Cəfərli tədbiri giriş sözü ilə açaraq bildirdi ki, ömrünün və yaradıcılığının təxminən, 50 ilini Lənkəranla bağlayan, burada yaşayıb-yaradan Qasir ədəbi, maarifçi fəaliyyəti ilə nəinki Lənkəranın, bölgənin, hətta ölkənin ədəbiyyatına, mədəniyyətinə və təhsilinə misilsiz töhfələr vermişdir.

Qafar Cəfərli qeyd etdi ki, Qasirin Cənub ədəbi mühitinin formalaşmasında və yüksəlişində, ümumən ədəbiyyatımız qarşısında ən böyük xidməti Lənkəranda yaratdığı və rəhbərlik etdiyi dövrün ən məşhur "Föveül-füsaha" (Gözəl danışanlar, natiqlər dəstəsi) adlı ədəbi Məclisini yaratmasıdır. XIX əsrdə Azərbaycanın qabaqcıl şəhərlərində və müxtəlif bölgələrində yaranan Ədəbi Məclislər içərisində Qasirin yaratdığı Məclis özünün əhatə dairəsinə, keçirilən tədbirlərin kəmiyyət və keyfiyyətinə görə digərlərindən müsbət mənada çox fərqlənirdi. Bunun bir əsas səbəbi isə Məclisə rəhbərlik edən Qasirin özünün böyük istedad sahibi, geniş savadı, dünyagörüşü və açıq fikirli olması ilə bağlı idi. Fəaliyyətdə olduğu təxminən, 50 il ərzində cəmiyyətin müxtəlif təbəqələrini əhatə edən bu Məclis Qasiri müqtədir bir şair kimi tanıtmaqla yanaşı, ədəbiyyatımıza bir çox istedadlı söz adamlarını da bəxş etmişdir.

Tədbirdə iştirak edən Lənkəran Dövlət Universitetinin professoru, filologiya elmləri doktoru, əməkdar müəllim Yadulla Ağazadə Qasirin həyat və yaradıcılığı barədə geniş məruzə ilə çıxış etdi. Onun çoxşaxəli yaradıcılığından ətraflı söz açaraq, əsərlərinin məzmun rəngarəngliyindən və janr müxtəlifliyindən danışdı. Böyük şairimiz S.Ə.Şirvani ilə, həmçinin Qarabağda və Bakıda yaşayan, dövrün tanınmış şairlərilə görüşməyindən, məktublaşmağından söz açdı. Qasirin Lənkəranda yaratdığı Ədəbi Məclisin bütün bölgədə ədəbi mühitin inkişafına böyük təsir göstərdiyini bildirən Y.Ağazadə onun klassik şeir ənənəsi üstündə dövrünün həyat tərzini əks etdirən böyük bir sənətkar olduğunu qeyd etdi və əsərlərindən nümunələr səsləndirdi.

Tədbir iştirakçılarından AMEA Lənkəran Regional Mərkəzinin direktor əvəzi, tarix üzrə fəlsəfə doktoru Cəmil Quliyev, tarixçi-tədqiqatçı İldırım Şükürzadə, şair Ağamir Cavad Qasir yaradıcılığına tarixi nöqteyi-nəzərdən yanaşıb şairin ədəbi irsinin müxtəlif məqamlarına toxundular. Şairlərdən - Əhməd Haqsevər, Ziyafət Yəhya, Əlizaman Baxiş, Sərraf Talıb, Nəriman Azəri, Fərasət Nuriyev, Bəxtiyar Hüseynov, Ramiz Lerikli, şahmat üzrə əməkdar məşqçi İdrak Dadaşov və başqaları çıxışlarında Qasir yaradıcılığı barədə fikirlərini bölüşdülər. Şairlər onun qəzəllərinə yazdıqları nəzirələrini oxudular.

Lənkəran Dövlət Dram Teatrının tanınmış aktyorları Aynur Əhmədova və Allahverən Babayev Qasirin rübai və qəzəllərini ifa etdilər. Ustad muğam ifaçısı İmanverdi Ağayevin Qasirin qəzəli üstə oxuduğu muğam tədbir iştirakçılarına xoş əhval-ruhiyyə bəxş etdi.

Sonra söz tədbirdə iştirak etmək üçün Bakı şəhərindən gələn qonaqlara verildi. Qasirin nəvəsi Tufan Axundovun iş yoldaşları - AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları, tarix üzrə fəlsəfə doktorları - İdris Əliyev, Xaqani Alməmmədov və Faiq Nəsibov çıxış edərək, Qasir irsinin tədqiq olunması ilə bağlı fikirlərini bölüşdülər. Qasirin nəticəsi Qasir Axundov, kötükcəsi Böyükağa Quliyev və Qasirin Lənkəranda yaşayan qohumlarından Vüqar Qasımov çıxışlarında Qasirə həsr olunmuş ilk tədbir olaraq bugünkü tədbirin xüsusi əhəmiyyət daşıdığını qeyd etdilər və tədbiri təşkil edən Qafar Cəfərliyə və zəhməti keçən hər kəsə minnətdarlıqlarını ifadə etdilər.

Qasir Axundov tərəfindən Mirzə İsmayıl Qasirin seçilmiş əsərləri əsasında nəşr olunmuş kitabları AYB Lənkəran bölməsinin kitabxanasına hədiyyə edildi.

Sonda xatirə şəkilləri çəkildi.

**AYB Lənkəran bölməsi**